UOT 339.9; 339.9.61.061(100)
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.267

# ZƏNGƏZUR DƏHLİZİNİN TARİXİ ƏHƏMİYYƏTİ VƏ NAXÇIVAN BEYNƏLXALQ LOGİSTİKA MƏRKƏZİ KİMİ

**EMİN ZEYNALOV**
*Naxçıvan Dövlət Universitetinin*
*İqtisadiyyat və idarəetmə fakultəsinin müəllimi*
*E-mail: eminzeyni44@gmail.com*

## Giriş

Azərbaycan Respublikasında logistika sektoru ildən-ilə inkişaf edir. Həm dövlət, həm də özəl sektor bu sahədə mühüm işlər görür və bir çox layihələr həyata keçirir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Logistika və Ticarətin İnkişafına dair Strateji Yol Xəritəsi" bu inkişafların konkret nümunəsidir. Azərbaycanın birbaşa dənizə çıxışının olmamasına və 3 tərəfdən quru ilə əhatə olunmasına baxmayaraq, önəmli strateji mövqeyə malikdir. Ölkə Asiyadan Avropaya gedən iki mühüm ticarət marşrutu, Şimal-Cənub və Şərq-Qərb (TRACECA) nəqliyyat dəhlizləri üzərində yerləşir. Bakı-Tbilisi-Qars dəmir yolu, Orta Dəhliz və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi layihələrlə nəqliyyat dəhlizlərinə töhfələr verir və dövlət başçısının dediyi kimi, "Azərbaycan Mərkəzi Asiyanı Qərblə, Cənubi Asiyanı Şimalla birləşdirən mühüm nəqliyyat mərkəzinə çevrilib", beynəlxalq layihələrdə iştirak etməklə həm də siyasi əhəmiyyət qazanıb. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri kimi layihələrdən əldə edilən gəlirlərlə beynəlxalq logistika mərkəzlərinin yaradılması və inkişafı gündəmin əhəmiyyətli maddələrindəndir. Azərbaycan həm də beynəlxalq layihələrdə iştirak etməklə siyasi prioritetlər qazanır. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri və bütün dünyada bu qəbildən olan digər layihələrdən əldə edilən gəlirlərlə beynəlxalq səviyyədə logistik mərkəzlərin yaradılması və inkişafı bu günün gündəmini təşkil edir. Ölkənin nəqliyyatdan əldə etdiyi gəlirlərlə bağlı statistik məlumatlar və bu sahədə aparılan tədqiqatlar da gələcək üçün müsbət proqnozlar verməyə əsas verir.

## Zəngəzur dəhlizinin tarixi əhəmiyyəti

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2011-ci il 5 iyul tarixdə keçirilən Dünya azərbaycanlılarının III qurultayındakı çıxışı tarixi həqiqəti güzgü effekti ilə əks etdirirdi: "Tarix tarixdir. 1978-ci ildə Qarabağda məskunlaşmalarının 150 illiyini qeyd edən ermənilər yaxşı bilirlər ki, onlar bu torpaqlara qonaq kimi gəlmişlər. Nəinki Dağlıq Qarabağ, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni, Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi". Zəngəzur əzəli Azərbaycan torpağıdır və Zəngəzur dəhlizinin tarixi əhəmiyyəti danılmazdır. Dəhlizin açılması ilə ticarət yolları potensialı və qlobal bazarlara çıxış imkanları daha geniş regionla yanaşı, Azərbaycan və Ermənistanın iqtisadiyyatlarına əhəmiyyətli dərəcədə fayda verə bilər. İqtisadi üstünlüklər effektiv diplomatik danışıqlara, maraqlı tərəflərin təhlükəsiz və regional iqtisadi inkişafa hazır olmasına əsaslanır. Zəngəzur dəhlizinin çoxşaxəli nəticələrinin sonrakı tədqiqi, xüsusilə regional sabitlik və beynəlxalq münasibətlər üçün vacibdir. Nəticə etibarilə dəhlizin açılması təkcə fiziki və iqtisadi elementlərə deyil, həm də əhəmiyyətli dərəcədə diplomatik və təhlükəsizlik məsələlərinə əsaslanır. Zəngəzur dəhlizinin mühüm komponenti onun regional təhlükəsizlik dinamikasına potensial təsiridir. Rusiya və İran kimi dövlətlərin təsirinə məruz qalan regionda dəhlizin açılması ilə birlikdə siyasi təzyiqlərin daha da çoxalması ehtimal olunur. Beynəlxalq ictimaiyyətin Zəngəzur dəhlizinə reaksiyası da eyni dərəcədə əhəmiyyətlidir. Avropa ölkələri Cənubi Qafqazda müxtəlif maraqlara malikdir və bu, onların dəhlizdə iştirakına potensial olaraq təsir göstərir. Dəhlizin yeni ticarət yolları yaratmaq qabiliyyəti Avropa və ya Asiya ölkələrindən sərmayə cəlb etməklə yanaşı, digərləri üçün strateji narahatlıqlar yarada bilər. Beynəlxalq təşkilatların dəhlizin təhlükəsiz və qərəzsiz fəaliyyətinin təmin edilməsində funksiyasının nəzərə alınması vacib amildir. Qardaş ölkə hər zaman olduğu kimi, dəhlizinin açılması ilə bağlı məsələdə də Azərbaycanın təşəbbüsünü israrlı şəkildə dəstəklədiyini dəfələrlə vurğulamışdır. Prezident Rəcəb Tayyib Ərdoğan, BMT Baş Assambleyasındakı çıxışında ölkəsinin

birmənalı mövqeyini növbəti dəfə ortaya qoyaraq deyib: "Ermənistanın başda Zəngəzur dəhlizinin açılması olmaqla verdiyi sözləri yerinə yetirməsini gözləyirik". "Türk Dövlətləri Multimodal Nəqliyyat və Logistika Forumu"nda yekdilliklə bütün türk dövlətləri dəhlizin açılmasına müsbət mövqelərini ortaya qoydular. Ümumilikdə, ABŞ-nin də Zəngəzur dəhlizinin açılmasına müsbət münasibətini qeyd edə bilərik.

### Zəngəzur dəhlizi müasir dövrdə

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə II Qarabağ müharibəsi Azərbaycanın mütləq qələbəsi ilə başa çatdı və bu regionda yeni reallıqların yaranmasına gətirib çıxardı. Rusiya, Azərbaycan və Ermənistan arasında 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli sazişin maddələrindən biri də kapitulyasiya aktına imza atan Ermənistanın müharibədə uduzan tərəf olduğu üçün müəyyən öhdəlikləri yerinə yetirməsi şərti idi. Bu öhdəliklərdən biri də Azərbaycanla Naxçıvan arasında əlaqəni təmin edəcək və birbaşa Türkiyə ilə həmçinin Türkiyəni Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyaya birləşdirəcək Zəngəzur dəhlizi idi. Bu dəhliz Azərbaycan üçün həyati əhəmiyyətə malikdir və dövlət başçısının təbirincə desək: "Ermənistan bunu istəsə də, istəməsə də bu dəhliz açılacaqdır". Prezident İlham Əliyev bu ilin yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə çıxışı zamanı: "Yeni layihələr arasında Zəngəzur dəhlizini qeyd etmək istərdim. Zəngəzur dəhlizi layihəsi Azərbaycan tərəfindən irəli sürülmüşdür. İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra bu məsələ beynəlxalq gündəliyə, beynəlxalq leksikona salındı və bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir. Əlbəttə ki, biz bu dəhlizin açılması üçün praktiki addımlar atırıq", - dövlət başçısı qeyd edib.

Zəngəzur dəhlizinin açılması ilə dəmir yolu və avtomobil nəqliyyatı regionun daşımalarını yaxşılaşdıracaq, Avropa ilə Asiya arasında gediş-gəliş vaxtı əhəmiyyətli dərəcədə azalaraq on iki günə düşəcək. Bundan əlavə, Cənubi Qafqaz ölkələri ilə digər regionlar arasında əməkdaşlıq və iqtisadi əlaqələr artacaq. Eyni zamanda, yük və insan daşımaları sahəsində yeni şirkətlər üçün imkanlar təmin etməklə, nəqliyyat sektorunda artımı təşviq edəcəkdir. Bu, ölkələrin qlobal iqtisadiyyata inteqrasiyasını təmin edən beynəlxalq nəqliyyat infrastrukturunun yaradılması sahəsində beynəlxalq əməkdaşlığı artıracaq. Ona görə də dəhlizdə yerləşən şəhərlərin inkişaf potensialı və yeni şirkətlər üçün investisiya imkanları Zəngəzur dəhlizinin güclü tərəflərindən biridir [6] . Dəhliz Çini Avropa ilə birləşdirməklə, mal və xidmətlərin daha rahat çatdırılmasına imkan verdiyi üçün digər marşrutlarla müqayisədə daha etibarlı alternativ imkanı təmin edir [1].

**Şəkil 1. Zəngəzur dəhlizində görülən işlər**



***Mənbə:*** *İctimai TV 2024.*

Bu dəhliz beynəlxalq ticarət yolları üzərində yerləşdiyindən və Asiyadan Avropaya ticarət dəhlizə keçəcəyi üçün bu, həm də regionun ticarət həcmini artıracaqdır. Yol və hava yollarında məsafələr azaldıqca xərclər də azalacaq. Bu dəhlizin güclü tərəflərindən biri də şimaldan Avropaya gedən marşrutlardan daha rahat və sürətli olmasıdır. Dəhlizin açılması ilə türk dünyası və inteqrasiya prosesinin sürətlənməsi arasında sürətli nəqliyyat xətti yaranacaq və Türk Dövlətləri Birliyi strateji tərəfdaşlıq səviyyəsinə çatdıqda keçidlər daha asan və sürətli olacaqdır [5]. Zəngəzur dəhlizinin reallaşması ilə Türkiyədən Azərbaycana çatmaq üçün Gürcüstan və İrandan keçməyə ehtiyac qalmayacaq, Azərbaycana birbaşa çıxış mümkün olacaqdır. Azərbaycan və Türkiyə arasında Zəngəzur üzərindən keçəcək yeni dəhliz Bakı-Tbilisi-Qars xəttindən təxminən 340 km qısa olacaq, bu isə nəqliyyatın sadələşdirilməsinə, həmçinin Azərbaycan və Türkiyə arasında əlaqələri daha da inkişaf etdirəcəkdir.

### Zəngəzur dəhlizinin logistik əhəmiyyəti və iqtisadi faydaları

Zəngəzur dəhlizinin əhəmiyyətini müxtəlif istiqamətlər üzrə alternativ marşrutların mövcudluğu ilə xarakterizə etmək olar. Bu dəhliz, ilk növbədə,

Türkiyə ilə Orta Asiya arasında yeni marşrutun yaradılmasına kömək edəcək, Türkiyənin bu istiqamətdə İrandan asılılığını zəiflədəcək, ikincisi, Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirən İranın təzyiq aləti olan Naxçıvan marşrutunun təsirini azaldacaqdır. Bu, həmçinin Gürcüstana daxil olmadan Rusiya ilə Türkiyə arasında yeni nəqliyyat marşrutunun yaradılmasına kömək edəcək, həmçinin dəhlizin açılması ilə ölkələr arasında ticarət məsafələrinin əhəmiyyətli dərəcədə azalacağı və ticarətin artacağı gözlənilir. Zəngəzur dəhlizi təxminən 40 kilometr uzunluğunda olacaq və regionda ticarət potensialını artıracaq mühüm layihədir. Burada "Orta Dəhliz" layihəsinin önəmi və bu dəhlizdə Zəngəzurun önəmini vurğulamaq lazımdır. Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonrakı illərdə layihə genişlənib və iştirakçıların sayı Ukrayna, Rumıniya və Polşa kimi dövlətlərin hesabına genişlənib. Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, bundan sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanır. Bu, Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrutdur [13].

İlham Əliyevin Çin telekanalına 2025-ci ilin fevral ayında verdiyi müsahibədə orta dəhlizlə bağlı səsləndirdiyi fikirlər də bu layihənin ölkəmiz üçün önəmini ortaya qoyur:

"... Bu, biznes imkanları təmin edir. Çünki Azərbaycanın Orta Dəhlizlə bağlı mövqeyi, sadəcə, tranzit ölkəsi olmaq və tranzitdən ödənişlər almaqdan ibarət deyil. Bizim hədəfimiz özəl sektora bundan faydalanmağa kömək etmək üçün dəhlizin keçdiyi Azərbaycan ərazisində müəssisələr yaratmaqdır. Əlbəttə ki, sizin istinad etdiyiniz paneldən bəri bu sahədə, o cümlədən Çin-Azərbaycan münasibətlərində bir çox hadisələr baş vermişdir. Artıq qeyd etdiyimiz kimi, biz strateji tərəfdaşıq, lakin, eyni zamanda, Orta Dəhlizin Azərbaycan seqmentinin infrastrukturu təkmilləşdirilmişdir. Hazırda biz görürük ki, bu təkmilləşdirilmiş infrastruktur gələcək 3-5 il üçün kifayət etməyəcək". Bəhs olunan layihədə "pazl"ın ən vacib parçası isə təbii ki, Zəngəzur dəhlizi olacaq. Şübhəsizdir ki, dəhlizin açılması ilk növbədə, bölgənin inkişaf etməsində xüsusi əhəmiyyət kəsb edəcək, eyni zamanda regionda yeni əməkdaşlıq mühitinin fomalaşmasına, sülhün və tərəqqinin təmin olunmasına xidmət göstərəcək. Burada diqqət çəkən ən önəmli məsələ isə odur ki, dəhliz bütün Türk dünyası ölkələri arasında körpü funksiyasını həyata keçirəcək, bu həqiqətən, möhtəşəm tarixi hadisədir. Azərbaycan Türkiyə ilə birlikdə tarixi Türk dövlətlərinin əlaqələrinin yaradılmasında, beynəlxalq əməkdaşlığında və ortaq layihələrin reallaşdırılmasında maraqlı olan qabaqcıl ölkələr sırasında yer alırlar. Zəngəzur dəhlizinin açılması tarixi ədalətin bərpa edilməsi və bütün Türk dünyasının inteqrasiyasına yeni imkanlar yaradılması baxımından tarixi zərurətdir. Dəhliz boyunca yaradılacaq yeni avtomobil və dəmir yolları ölkəmizin ərazisində Şərq-Qərb və Şimal-Cənub marşrutları ilə əlaqələndiriləcək. Respublikamızda ən böyük dəniz ticarət limanının, həmçinin işğaldan azad edilmiş ərazilərdə inşa olunan üç beynəlxalq hava limanının yaradacağı imkanlarla birlikdə, bu qənaətə gələ bilərik ki, Zəngəzur dəhlizi ölkəmizin logistik imkanlarını gücləndirməklə bərabər, beynəlxalq səviyyəli marşrutlardan birinə çevrilməsi və ölkəmizin tranzit nəqliyyat axınının mərkəzinə çevrilməsi, habelə böyük məbləğlərdə gəlirlər əldə etməsi üçün əvəzsiz imkandır. Onu da qeyd edək ki, müharibədən qazandığımız qələbə ilə regionda söz sahibi olmağımız və yeni reallıqların yaranması, potensial yeni nəqliyyat dəhlizlərinin yaradılmasına da rəvac verir. Bu baxımdan Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu xəttini, İran-Ermənistan-Azərbaycan-Türkiyə-Rusiya dəmir yolu əlaqəsi bu ölkələrin yeni sosial-iqtisadi və nəqliyyat-kommunukasiya imkanlarının şaxələndirilməsi, bütün region ölkələri üçün infrastruktur layihəsindən fayda götürmək imkanı deməkdir.

Müxtəlif beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsi olan Azərbaycan nəinki regionun aparıcı dövlətidir, həmçinin Avropanın enerji təminatında da qabaqcıl rol oynayır, 44 günlük müharibədə qazanılan möhtəşəm qələbə nəticəsində artıq Avropa və Asiya qitələrinin nəqliyyat xəritəsində baş rollardan birini tutmağa namizəddir. Bu, mühüm coğrafi mövqeyimizlə bərabər, ələlxüsus son illərdə həyata keçirilən düzgün siyasətin nəticəsidir. Bunun əyani nəticəsi kimi Azərbaycanda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində qəbul edilmiş sistemli, mütəmadi və yerində qərarlar nəticəsində hazırda ölkəmiz hər növ beynəlxalq daşınmanı həyata keçirməyə qadirdir.

**Qrafik 1. Azərbaycanda nəqliyyat sektorunda yük daşınması, 1000 ton**




***Mənbə:*** *https://www.stat.gov.az/source/transport/*

Qrafik 1-də göstərilən məlumatlara əsasən Azərbaycanda nəqliyyat sektorunda yük daşıması 2023-cü ildə 229,897 min ton, bunun əsas hissəsi avtomobil və boru kəmərləri təşkil etmişdir.

Dəhlizin açılması ilə türk şirkətlərinin bölgənin yenidən qurulmasında fəal rol alması gözlənilir. Bundan əlavə, dəhliz sayəsində mallar İran və Gürcüstan kimi ölkələrdən keçən xətlərə ehtiyac olmadan birbaşa Azərbaycana göndərilə, Orta Asiyaya daşımalar daha sürətli və daha az xərclə həyata keçirilə bilər. Bu vəziyyət Xəzər dənizində reyslərin sayını artırmaqla limanların funksionallığını artırmaq potensialını ortaya qoyur [9] . Dünyanın ən mühüm ixracatçılarından biri olan Çin Xalq Respublikası hər il dünya bazarına 2 trilyon 400 milyard ABŞ dolları dəyərində məhsul verir ki, [7] bunun da yarısı Avropa bazarına aiddir. Bu kontekstdə Çin Avropa ilə iqtisadi əlaqələrə böyük əhəmiyyət verir və yeni alternativ nəqliyyat marşrutlarının yaradılmasında maraqlıdır. Bu baxımdan Çin mövcud kommersiya daşıma şəbəkəsinə alternativ təklif etmək və öz ölkəsindən göndərilən malların Türkiyənin şərqinə, oradan isə boğazlar vasitəsilə Avropaya çatdırılmasını təmin etmək istəyir. Bu mənada tam fəaliyyət göstərən Zəngəzur dəhlizinin dünya ticarət arenasında mühüm mövqeyə malik olacağını proqnozlaşdırmaq olar. Bundan əlavə, Zəngəzur dəhlizi Azərbaycana həm siyasi, həm də iqtisadi qazanc gətirə bilər. Birincisi, Azərbaycan-Naxçıvan marşrutu BTQ dəmir yolu marşrutundan 344 km qısadır. Bu amil beynəlxalq ticarətin əsas səmərəlilik göstəricilərindən hesab edilən dövriyyə müddəti göstəricisini xeyli azaldır.

**Qrafik 2. Naxçıvan Muxtar Respublikası yük daşınması göstəriciləri**




***Mənbə:*** *https://www.stat.gov.az/source/regions/*

Məlumatlar yük və sərnişin daşımalarında nəzərəçarpacaq tendensiyaları göstərir. Avtomobil nəqliyyatı ilə yük daşınması 2022-ci ildəki 16,927 min tondan 2023-cü ildə 7,059 min tona qədər azalaraq 58,3%-ə çatmışdır. Oxşar şəkildə, yük dövriyyəsi 2022-ci ildəki 956,4 milyon ton-km-dən 2023-cü ildə 409,3 milyon ton-km-ə düşüb ki, bu da 57,2% azalma deməkdir.

Dövriyyə müddətinin qısalması malların yolda sərf etdiyi qısa müddətə görə daşıma xərclərini azaldır ki, bu da həm istehsalçılar, həm də alıcılara böyük faydalar təmin edir. Digər mühüm amil beynəlxalq daşımalarda böyük əhəmiyyət kəsb edən alternativ marşrutların olmasıdır. Bir çox alternativi olan daşıma marşrutları daha etibarlı hesab edildiyi üçün BTQ marşrutunun hər hansı səbəbdən xidmətdən çıxması halında Çindən Avropaya daşımalar Azərbaycan-Naxçıvan-Türkiyə marşrutu ilə həyata keçirilə bilər [7]. Qeyd edək ki, Azərbaycan dəmir yollarında daşımaların xeyli artmasına Rusiya-Ukrayna müharibəsi də öz təsirini göstərib. “Azərbaycan Dəmir Yolları” QSC-nin məlumatına görə, 2022-ci ilin yanvar-aprel aylarında 2021-ci ilin 4 ayı ilə müqayisədə 636 min ton əlavə yük daşınıb ki, bunun da böyük hissəsi beynəlxalq daşımadır [2].

Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın ixrac potensialının daha da artacağı gözlənilir. Bu dəhliz, Naxçıvanı Azərbaycanın digər bölgələri ilə birləşdirərək, Türkiyə və digər türk dövlətləri ilə quru və dəmir yolu əlaqələrini təmin edəcək. Nəticədə, Naxçıvanın sənaye məhsulları daha sərfəli marşrutlarla Avropa və Asiya bazarlarına çıxış imkanı əldə edəcək. Bununla yanaşı, dəhlizin istifadəyə verilməsi ilə muxtar respublikanın iqtisadiyyatı genişlənəcək və ixrac həcmi əhəmiyyətli dərəcədə artacaqdır. Naxçıvan Muxtar Respublikası son illərdə ixrac potensialını əhəmiyyətli dərəcədə artırmışdır. 2023-cü ilin ilk yarısında ixrac əməliyyatlarının həcmi 7,936 milyon ABŞ dolları təşkil etmişdir ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,9 dəfə artım deməkdir. 2024-cü ilin ilk dörd ayında isə Türkiyə ilə ticarət dövriyyəsi xüsusilə diqqətəlayiq olmuşdur; bu müddətdə Türkiyəyə ixracın həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 28% artmışdır [12]. Bu dəhliz vasitəsilə Naxçıvan, Azərbaycanın digər bölgələri və Türkiyə ilə birbaşa quru və dəmir yolu əlaqəsi quraraq, regional ticarət və nəqliyyat marşrutlarının mərkəzinə çevriləcəkdir. Bu, Naxçıvanın iqtisadi inkişafını sürətləndirəcək və ixrac həcminin əhəmiyyətli dərəcədə artmasına şərait yaradacaqdır. Həmçinin Naxçıvanı Azərbaycanın qərb bölgələri ilə birləşdirərək, Türkiyə və Avropa bazarlarına birbaşa quru nəqliyyat əlaqəsi təmin edəcək. Nəticədə, Naxçıvanın tranzit-logistika potensialı artacaq və regionun əsas nəqliyyat qovşağına çevrilməsi mümkün olacaq.

Azərbaycanın 2020-ci ildə qazandığı qələbə nəticəsində Qarabağ torpaqlarının işğaldan azad edilməsi Avrasiyanın geoiqtisadi xəritəsində yeni imkanlar açdı və Azərbaycanın mövqelərini daha da möhkəmləndirdi. Mərkəzi Asiya marşrutu ilə Çindən Avropaya yüklərin daşınması potensialını artıracaq [3] , ölkənin regional ticarət və logistika mərkəzinə çevrilməsinə yol açacaq. İşğaldan azad edilmiş torpaqlarda daha iki ticarət və logistika mərkəzinin yaradılması məqsədəuyğun hesab olunur:

1. Zəngəzur dəhlizinin açılması ilə burada müxtəlif nəqliyyat infrastrukturlarının istifadəyə verilməsi Füzuli-Azərbaycan Beynəlxalq Hava Limanı, Qarabağ və Şərqi Zəngəzurda uzunluğu 700 km olan 10 avtomobil yolunun tikintisi bu bölgənin inkişafına investisiya axınının gücləndirilməsində və gələcəkdə bu bölgənin logistika mərkəzi kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edəcəkdir. Orta Asiya-Azərbaycan-Türkiyə-Avropa, İran-Rusiya, Rusiya-Türkiyə, Rusiya-Ermənistan marşrutları əsas nəqliyyat marşrutları hesab edilir.

2. Zəngəzur dəhlizinin istifadəyə verilməsi Naxçıvan Müxtar Respublikasının bütün rayonlarına iqtisadi inkişafına təsir edəcək, həmçinin region yeni iqtisadi-sosial mərhələyə keçid edəcəkdir.

**Nəticə**

Araşdırma göstərdi ki, Zəngəzur dəhlizinin açılması ilə regional müsbət təsirlər ortaya çıxacaq, Azərbaycana iqtisadi cəhətdən müsbət təsir edəcək, onun bölgədəki siyasi qüdrəti artacaq, logistika sahələrində müsbət təsirlər müşahidə olunacaq və cəmiyyətlər arasında sülhün təmin olunmasına kömək edəcəkdir. Araşdırmaya əsasən qeyd edə bilərik ki, imkanlardan maksimum istifadə etmək, güclü tərəfləri daha da inkişaf etdirmək, zəif tərəfləri və təhlükələri aradan qaldırmaq üçün təcrübələrə ehtiyac var. Bu kontekstdə ediləcəkləri belə ümumiləşdirə bilərik: Bu layihəyə təsir edən ən böyük amil siyasi hadisələrdir. Dəhliz boyu kommersiya və siyasi yeniliklərə maneələr aradan qaldırılmalı və təhlükəsizlik təmin edilməlidir. Tranzit keçidlə bağlı problemlər aradan qaldırılmalı, bununla bağlı marşrut ölkələri ilə müzakirələr aparılmalı, bölgənin mühüm bazaya çevrilməsinə çalışılmalıdır.

**Açar sözlər:** *Zəngəzur dəhlizi, beynəlxalq logistika, milli iqtisadiyyat, logistik faydalar.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Atifqızı, Ş. (2015). Beynəlxalq nəqliyyat dəhlizlərdə logistik əməliyyatlar.*

*2. Azərbaycan Dəmir Yolları. (n.d.). ADY Freight. Azərbaycan Dəmir Yolları. URL: https://freight.ady.az/az*

*3. Chedia, A. R. (2024). Zangezur corridor: Economic potential and political constraints. Russia in Global Affairs, 22(1), 194-216.*

*4. Əliyev, X. (2018). Azərbaycan Respublikasının Logistika Potensialı. Azerbaıjan Unıversıty, 53.*

*5. Gasımova, T., & Yurcu, M. E. (2023).Zengezur Koridoru'nun Azerbaycan'ın Dış Ticaret Ve Lojistik Faaliyetlerine Olası Etkilerinin Swot Analizi. Dumlupınar Üniversitesi İİBF Dergisi, (12), 1-15.*

*6. Gawliczek, P., & Iskandarov, K. (2023). The Zangezur corridor as part of the global transport route (against the backdrop of power games in the South Caucasus region). Security and Defence Quarterly, 41.*

*7. Guner, E. (2023). Zangezur Corrıdor In The Offing: Challenges And Prospects. Actual Problems Of The Mılıtary Art, 36.*

*8. İctimai TV (2024).Zəngəzur dəhlizi reallığa çevrilir/ Türk dünyasının birləşdiyi ərazidən XÜSUSİ reportaj.YouTube. URL:https://www.youtube.com/watch?app=desktop&v=tpT98O3kihU*

*9. https://president.az/az/articles/view/53736*

*10. https://www.stat.gov.az/source/transport/*

*11. https://www.stat.gov.az/source/regions/*

*12. https://customs.gov.az/az/*

*13. https://www.yeniazerbaycan.com/Arxiv_e83462_az.html*



**Zeynalov Emin**
***Teacher of Economics and Management Faculty of Nakhchivan State University***


## The historical importance of the Zangezur corridor and Nakhchivan as an international logistics center


**SUMMARY**

Although the Zangezur corridor is an intercontinental and topical foreign trade issue, it has not been studied to a level that would help Azerbaijan and the countries of the region make strategic decisions to determine the situation. In this context, the purpose of this study is to examine the possible foreign trade and logistics impacts of the opening of the Zangezur corridor on Azerbaijan and neighboring countries. Considering the positive contributions of logistics activities to the international trade and economy of countries, it is expected that studies on the Zangezur corridor, which is planned to be fully operational, will make significant contributions from a theoretical and practical perspective. The current study is about the possible impacts of the opening of the Zangezur corridor on Azerbaijan's foreign trade. The study touches on the detailed research results on the contribution of the Zangezur corridor to the economy and national economy of Azerbaijan.



**Keywords:** *Zangezur corridor, international logistics, national economy, logistics benefits.*



**Эмин Зейналов**
***Преподователь факультета экономики и менеджмента Нахичеванского Государственного Университета***


## Историческое значение Зангезурского коридора и Нахчывана как международного логистического центра


**РЕЗЮМЕ**

Хотя Зангезурский коридор является важным и актуальным вопросом внешней торговли межконтинентального значения, он не изучен на таком уровне, который помог бы Азербайджану и странам региона принимать стратегические решения для определения ситуации. В этом контексте целью данного исследования является изучение возможных последствий открытия Зангезурского коридора для внешней торговли и логистики Азербайджана и соседних стран. Учитывая позитивный вклад логистической деятельности в международную торговлю и экономику стран, ожидается, что исследование Зангезурского коридора, который планируется ввести в эксплуатацию в полном объеме, внесет значительный вклад как с теоретической, так и с практической точки зрения. В текущем исследовании изучается возможное влияние открытия Зангезурского коридора на внешнюю торговлю Азербайджана. В исследовании подробно рассматриваются результаты исследования вклада Зангезурского коридора в экономику Азербайджана и национальную экономику.



**Ключевые слова:** *Зангезурский коридор, международная логистика, национальная экономика, логистические преимущества.*